**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**

# 9 noyabr Dövlət Bayrağı Günüdür



***Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız***

**Bakı – 2013**

## Tərtibçidən

Azərbaycan Respublikasının tanıtım vəsiqələrindən, dövlətçilik rəmzlərindən biri, onun Milli Bayrağı - Dövlət bayrağıdır . Hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli – mənəvi irsi, qlobal planda maddi və mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Azərbaycanın üçrəngli Milli Bayrağı həm də müstəqilliyimizi təcəssüm etdirən rəsmi dövlət rəmzlərindən biridir. Hər bir Azərbaycan vətəndaşı milli bayrağımıza, gerbimizə və himnimizə ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009 - ci il noyabrın 17 - də Dövlət Bayrağı gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Məhz bu sərəncama uyğun olaraq noyabrın 9 - u ölkəmizdə Dövlət Bayrağı günü kimi təntənə ilə qeyd olunur. Bu, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən əlamətdar və unudulmaz hadisələrindəndir. Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların , o cümlədən Avropa Şurasının tam hüquqlu üzvü olub, üçrəngli milli bayrağımız Avropanın mərkəzində dalğalanmağa, bizim varlığımızı, gücümüzü bütün dünyaya yaymağa başlayıb. Biz hədsiz qürur hissi keçiririk ki, Dövlət Bayrağımız bu gün dünyanın bütün qitələrində, mötəbər tədbirlərdə əzəmətlə, vüqarla dalğalanır. Bütün dünya azərbaycanlılarını bu müqəddəs bayraq, azərbaycançılıq məfkurəsi ətrafında birləşməyə səsləyirik. Azərbaycan bu gün tam müstəqil siyasət yürüdür, xalqımız bu siyasətin real nəticələrinin canlı şahididir. Bax bu gün yüksək nailiyyətlərlə xalqımız öz əziz bayramını – Dövlət Bayrağı gününü qeyd edir. 9 noyabr Bayraq Günü münasibəti ilə yazılmış vəsaitimiz Uşaq kitabxanaları üçün nəzərdə tutulmuşdur. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların "Azərbaycan bayrağı" haqqında olan məlumatlarını daha da artırmaqdır.

"Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" adlanan metodik vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin "Giriş" hissəsində " 9 noyabr Bayraq günü " nün yaranma tarixindən, əhəmiyyətindən söhbət açılır. Vəsaitin ikinci hissəsi isə bu münasibətlə uşaq kitabxanalarında keçiriləcək tədbirlərdən bəhs olunur.

## Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur.

Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədi ilə qərara alıram:

1. Hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələlərihəlletsin.

İlhamƏliyev
AzərbaycanRespublikasınınPrezidenti

Bakı şəhəri, 17 noyabr 2009-cu il.

# Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız

Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

Ümummilli lider Heydər Əliyev

Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli - mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

İlham Əliyev

Azərbaycan Respublikasının prezidenti

Azərbaycan Respublikasının tanıtım vəsiqələrindən, dövlətçilik rəmzlərindən biri, onun Milli Bayrağı - Dövlət bayrağıdır.

Respublikamızın dövlət bayrağı – müstəqil Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Dövlət bayrağımız üzərində səkkizguşəli ulduz və aypara təsvir edilmiş, mavi, qırmızı, yaşıl rəngli 3 zolaqdan ibarətdir. Bu rənglər xalqımıza və dövlətimizə aid olan üç mühüm cəhəti özündə birləşdirir. Mavi rəng türk soyumuzu, qırmızı rəng müasirliyimizi, yaşıl rəng isə müqəddəs İslam dinini ifadə edir. Bu gün Konstitusiya ilə müstəqil Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri sayılan üçrəngli bayrağımızın yaranma tarixi XIX əsrin əvvəllərinə təsadüf edir. Bu bayraq 1918 - 1920 - ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaradılmış milli dövlətçilik atributlarındandır. Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurası 1918 - ci il noyabrın 9 - da hökumətin başçısı Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın üçrəngli – mavi, qırmızı, yaşıl zolaqlı və üzərində ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq olunması haqqında qərar qəbul etmişdir. Milli bayrağımız ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qaldırılmışdır. Lakin

Azərbaycan Xalq Cumhuriyyətinin ömrü uzun olmadı, o, qonşu iri dövlətlərin məkrli planları nəticəsində 1920 - ci ildə süqut etdi. Xalq üçrəngli bayrağından məhrum edilsə də, ona olan sevgini ürəyində yaşatdı. Düz 70 il xalqın qəlbində istiqlal sevgisi və istiqlalın rəmzi olan üçrəngli bayrağa məhəbbət səngimədi. İnsanlar milli bayrağımızın nə vaxtsa yenidən başımız üzərində dalğalanacağına həmişə böyük ümid bəsləyirdilər.

Xalqın arzuları 70 il ötəndən sonra həyatda öz təsdiqini tapdı. Üçrəngli bayrağımız əvvəlcə qədim Naxçıvan torpağında qaldırıldı. 1990 - cı il noyabrın 17 - də üçrəngli bayrağımız ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Muxtar respublikanın dövlət bayrağı kimi təsdiqləndi. 1991 - ci il fevralın 5- də isə Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağımızın Azərbaycanın dövlət bayrağı kimi təsdiq olunması haqqında Konstitusiya Qanunu qəbul etdi.

Bəli, üçrəngli bayrağımız Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Respublikamızın prezidenti xarici ölkələrə səfərlərə getdikdə milli bayrağımız onu qəbul edən dövlət tərəfindən qaldırılır. Təntənəli mərasimlərdə dövlət bayrağı gətirilərsə, tədbirdə iştirak edən hərbiçilər hərbi salam verirlər, mülki şəxslər isə bayrağa dərin hörmət əlaməti olaraq baş geyimlərini çıxarırlar. Belə təntənəli mərasimlər qapalı yerlərdə keçirildikdə iştirakçılar bayrağın gətirilməsini ayaq üstə qarşılayırlar. Biz üçrəngli milli bayrağımızın respublikamızda bütün təşkilatların, o cümlədən Prezident Aparatının , Milli Məclisin binası üzərində dalğalanmasından böyük qürur hissi keçiririk. Bu gün milli bayrağımız həmçinin müstəqil Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatların iqamətgahları önündə qaldırılıb. Milli bayrağımız respublikamızın Fransa, Almanya, Çin, Rusiya, ABŞ, Türkiyə, İran və digər xarici ölkələrdəki səfirliklərinin yerləşdikləri binalarda, beynəlxalq sularda üzən gəmilərimizdə əzəmətlə dalğalanır. Üzərində milli bayrağımızın əksi həkk olunmuş “Azal” Hava Yollarının təyyarələri dünyanın, demək olar ki, bütün ölkələrinə məxsus hava məkanlarında uçur. Birləşmiş Millətlər Təşkilatının Nyu – Yorkdakı iqamətgahı önündə 180 - dən artıq müstəqil dövlətin bayrağı asılıb. Onların arasında üçrəngli bayrağımız xüsusilə seçilir.

Bir sözlə, dostu sevindirən, düşmənin gözünə tikan kimi batan üçrəngli bayrağımız dövlətimizin varlığını bütün dünyada təsdiqləyir. Şübhə yoxdur ki, müstəqil Azərbaycan siyasi və iqtisadi cəhətdən möhkəmləndikcə üçrəngli milli bayrağımız daha yüksəklərə ucalacaq, sancıldığı məkanların sayı daha da artacaq. Qoy daim zəfər soraqlı olsun üçrəngli bayrağımız!

Dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün müstəqil Azərbaycan Respublikasının üçrəngli dövlət bayrağı

fəxr - fəxarət mənbəyidir. Dövlət bayrağımızın üzərindəki rənglərin, aypara və ulduzun özündə nə kimi mənaları gizlətdiyi, tarixin  hansı dərinliklərinə gedib çıxdığı və nəhayət, nə üçün seçildiyi hər kəs üçün maraqlıdır.

Göylərin sonsuzluğuna ucalan dünyanın ən hündür bayrağı Bakıda Dövlət Bayrağı Meydanında dalğalanan Azərbaycanın 95 yaşlı üçrəngli bayrağıdır. Səkkizbucaq ulduzlu hilalımız iyirmi ildən çoxdur ən mötəbər beynəlxalq qurumların qarşısında bütün millətlərin bayraqları ilə bir sıradadır. Bu gün bayrağımızın yaradılmasının və ilk dəfə vətənimizin səmalarında dalğalanmasının 95 - ci  payızıdır. Millətimiz 95 il öncə başı üzərinə qaldırdığı üçrəngli bayrağının bir daha enməməsi üçün savaşdı, bu hilal uğrunda yüz minlərlə şəhid verdi, analar qucaqlarında körpələri ilə birgə doğrandı, yandırıldı. Millət olmaq üçün millətimizin övladları yaşamaq hüququndan keçdi.

Azərbaycan bayrağı öz rəmzi mənalarında məxsus olduğu dövlətin dilini, dinini, milliyətini, mədəniyyətini, tarixini, milli - mənəvi dəyərlərini, milli konsepsiyasını və s. amilləri ehtiva edir.

Xalqımız tarix boyu çox ağır dövrlərdən keçməsinə baxmayaraq, bu gün öz yüksəlişinin ən uca zirvəsindədir. Təbii ki, bayrağımızın həmişə ən yüksəklərdə görünməsi dövlətimizin gücündən, artan nüfuzundan xəbər verir.

Hər bir müstəqil dövlətin tanınması üçün dövlət rəmzləri zəruridir. Azərbaycan dövlətinin də müstəqilliyini simvolizə edən öz bayrağı, gerbi və himni var. Dünyada Azərbaycanın suverenliyini tərənnüm edən bu rəmzlərə ölkəmizdə hədsiz hörmətlə yanaşılır. Dövlət və hökumət də bunun üçün əlindən gələni edir. Bütün təhsil, səhiyyə və mədəniyyət ocaqlarında, ictimai yerlərdə dövlət rəmzlərimizi əks etdirən panno və lövhələr qoyulur, standartlar asılır, nəşr olunan kitab və dərsliklərdə də simvollarımızın əksi vurulur, himnimizin mətni yazılır, radio və telekanalllarda, idman yarışlarında, eləcə də müxtəlif səpkili tədbirlərdə himnimiz mütəmadi olaraq səsləndirilir.

Hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milii – mənəvi irsi, qlobal planda maddi və mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan milli – mənəvi dəyərlər hər bir etnosun kimliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər, eyni zamanda, hər bir xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsi, özünütəsdiq faktıdır.

Dünyanın qədim xalqlarından olan azərbaycanlılar milli mədəniyyətini, zəngin ənənə və dəyərlərini yaşadaraq yad təzahürlərdən hifz etməklə tarixi etnos

kimi mövcudluqlarını daim qoruyublar. Tariximizin ən dəyərli eksponatları sırasında yer tutan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Müasir anlamda isə Bayraq xalqın müstəqillik , suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir.

Bəli, hər bir xalqın tarix boyu əldə etdiyi ən müqəddəs nemət olan milli müstəqilliyinin real mahiyyəti və məzmunu onun dövlət rəmzlərində əksini tapır. Hələ minilliklər bundan əvvəl dünyada təşəkkül tapmağa başlayan ilk dövlətlər xalqlarının ibtidai dünyagörüşü əsasında dövlət rəmzlərini formalaşdırmağa çalışmışlar. Bəşər övladı ən ağır müharibələrdən , çətin mücadilələrdən sonra ucaltdığı bayrağa həm də qalibiyyət simvolu kimi yanaşmış, onu öz şərəfi, ləyaqəti kimi qorumuş, daim uca tutmuşdur.

Bayraq tarix boyu özünü özü kimi anlayan hər bir ailənin, hər bir tayfanın , hər bir qəbilənin , hər bir cəmiyyətin , xalqın, millətin özünü təqdim rəmzi olub. Ona görə bayrağa namus kimi, qeyrət kimi, qala kimi baxıblar əcdadlarımız. Gil lövhələrə yazı qazıyan ulularımız deyirdilər: “Enməz Bayraq”. Yenilməz bayraq gəzəridir, yaşarıdır, səmalarda yellənəndir. Bayrağı yenilməz edən millətin övladlarıdır. Vaxtilə siyasət meydanlarından endirilmiş Azərbaycanın Müstəqillik Bayrağı yenidən Bakının, Azərbaycanın üstündə dünyanın ən hündür bayraq səviyyəsinə qaldırıldı və bu gün səmada. Fəxr, qürur duyduğumuz Bayrağımız!

Məlumdur ki, 1918 - ci il iyun ayının 21 - də dövlət bayrağı barədə ilk hökumət fərmanı imzalanmışdı. Lakin qırmızı rəngli, ağ yerli ayparası və səkkiz guşəli ulduzu olan, bir növ Osmanlı imperatorluğunun bayrağını andıran ilk dövlət bayrağımız qısa ömürlü olur. 5 ayı tamam olmamış Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 9 noyabr 1918 - ci il tarixdə bu bayrağın təsvirini dəişməklə ay - ulduzlu üçrəngli bayraq ehtiva etdiyi məna və mahiyyətinə görə müqəddəs rəmzə çevrilir və milli bayraq statusu qazanır. Zaman - zaman üçrəngli bayraq milli dirçəlişimizin, milli savaşımızın, istiqlal uğrunda mücadiləmizin qida mənbəyinə, cövhərinə, mayasına çevrilir.”Türkləşək, islamlaşaq, müasirləşək” deyən Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu kimi neçə - neçə millət fədailərimizin, ideya - düşüncə sahiblərimizin ruhunu oxşayır.

Üçrəngli bayraqla bəzənən günlərimiz ömrümüzün ən əziz , yadda qalan anları, möhtəşəm günləri olub. O günlərin, o anların həyacanını illər boyu yaşamışıq. 1988 - ci ildə üçrəngli bayraq Azadlıq hərəkatına rəvac verən dəstələrin başları üstə qalxdı. Hər ürəkdə bu bayrağı dalğalanan gördük. Bu bayraq

Azərbaycan xalqının istiqlal mübarizəsində ölçüyəgəlməz, əvəzsiz, misli bərabəri olmayan rol oynadı.

2003 - cü ildə cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə bu inkişaf və quruculuq prosesləri yeni mərhələyə qədəm qoymuşdur. Son 10 il ərzində aparılan islahatlar daha da sürətlənmiş, Müstəqil Azərbaycanın üçrəngli bayrağı daha da yüksəklərə qaldırılmış, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənmişdir. Bayraq bizim üçün bir də ona görə əzizdir ki, həm işğalçı qüvvəyə qarşı mübarizələr aparılan xanlıqlar dövründə, həm ilk müstəqil Azərbaycan dövlətinin yaradılması və qorunması üçün aparılan mücadilə dövründə, həm də ötən əsrin son onilliyində baş verən ictimai – siyasi proseslərdə, xüsusən, 20 Yanvar faciəsi və Qarabağ uğrunda gedən savaşlarda qocalı - cavanlı, qadınlı, kişili istənilən azərbaycanlı bayrağı qorumaq üçün öz canını əsirgəməmişdir. Bəli, onlar bir daha sübut etmişlər ki, bizim bayrağımız fəxrimiz, iftixarımız və qürur mənbəyimizdir.

Hər dəfə paytaxtımızdakı “Azneft” meydanının yanından keçərkən Xəzərin sahilində əzəmət, qələbə, milli mənlik rəmzi olan üçrəngli bayrağımızın vüqarla dalğalandığını görəndə qürur hissi keçirməyə bilmirsən. Bəli, taleyin qisməti ilə biz indiki nəslə respublikamızın müstəqillik əldə etməsini, onun başlıca dövlət atributlarından biri olan Azərbaycan bayrağının qəddini düzəltməsini görmək nəsib oldu. İndi bayrağımız xarici ölkələrdə respublikamızı təmsil edən səfirliklərimizin binası üstündə dalğalanır. Xarici ölkələrin respublikamıza təyin olunan elçiləri öz etibarnamələrini təqdim etmək üçün Prezident cənab İlham Əliyevin qəbuluna gələrkən fəxri qaravulun önündən ötərək buradakı Azərbaycan bayrağının qarşısında ayaq saxlayıb baş əyirlər. İdmançılarımızın müxtəlif beynəlxalq yarışlarda bayrağımızı hər dəfə yüksəklərə qaldırdıqlarını gördükcə qürur hissi keçiririk. Bunları seyr etdikcə isə böyük şair M. Hadinin vaxtı ilə ürək yanğısı ilə dediyi “Yox millətimin imzası bu imzalar içində” misrası yada düşür. İndi isə hər bir Azərbaycan vətəndaşı iftixarla deyə bilər: “Var millətimin imzası bu imzalar içində”.

Hamımıza məlumdur ki, Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyi üçün əlindən gələni etdi. Güclü, qüdrətli dövlət quraraq onu gələcək nəsillər üçün əmanət qoyub getdi. Göstərdi ki, müstəqillik Azərbaycan xalqının milli sərvətidir. Bu sərvət daimidir, dönməzdir, əbədidir. Onu qorumaq isə zaman - zaman dünyaya gələcək yeni - yeni nəsillərin müqəddəs borcudur.

Bəli, hər bir xalqın ən müqəddəs rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas

göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının göründüyü ən şəffav və dəqiq meyarıdır. Belə bayraqlardan biri Xəzər dənizinin sahilində, Bakı buxtasında qürurla dalğalanır, bütün dünyaya müstəqil dövlətin varlığını bəyan edir. Bu, Azərbaycan xalqının azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağıdır. Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli – mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

“Bayraq sözü ümumtürk mənşəlidir və tarixi çox qədimdir. “Hələ min il bundan əvvəl böyük türk dilçi alimi Mahmud Kaşğarlının məşhur “Divanü- lüğət - it - türk” əsərində bu söz müasir dilimizdəki mənada və BAYRAK - BATRAK fonetik variantlarında qeydə alınmışdır. Eyni zamanda tədqiqatçıların fikrincə, həmin söz “BATIRAK” semantic – struktur təkamül modeli əsasında yaranmışdır. B ATIR (batırmaq,”sancmaq”) felindən törəmişdir. Onu da qeyd edək ki, müasir türk dilində BAYRAQ sözü ilə yanaşı SANCAQ sözü də işlədilir ki, o da SANCMAQ felindən yaranmışdır”. “Bayraq” sözü bir müstəqillik işarəsidir. Müasir anlamda bayraq dövlətimizin, millətimizin müstəqillik, suverenlik, milli azadlıq və istiqlal rəmzi funksiyasında işlənməkdədir. Dövlət bayrağı müqəddəs anlam daşıyır. Millətin qeyrəti, namusu, şərəfi, ləyaqəti bayraqda ifadə olunmuşdur. Bayraq milli azadlığın, istiqlal ideyalarının, bəşər sivilizasiyasında istər xalqın, istərsə də dövlətin yerinin və rolunun təcəssümüdür.

Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Dövlətin müstəqilliyinin simvolu olan bayraq bütün nəsillər üçün müqəddəs və yenilməzdir. Həmrəylik, türkçülük, dini dəyərlərə hörmət, müasirlik rəmzi olan bayrağımız həm də milli birliyin simvoludur. Bu gün bütün sahələrdə bir – birindən əhəmiyyətli uğurlara imza atan Azərbaycanın yeganə problemi Ermənistan – Azərbaycan , Dağlıq Qarabağ münaqişəsidir. Dövlətimizin uğurlu siyasəti bu problemimizin də tezliklə öz ədalətli həllini tapacağına , bayrağımızın işğal altındakı torpaqlarımızda dalğalanacağına böyük əminlik yaradır.

Dövlət başçısı İlham Əliyevin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi uğurlu diplomatiya və hərbi quruculuq siyasəti isə bu ülvi arzunun, prinsipial məqsədin gerçəkləşəcəyinə birmənalı əminlik yaradır.

İndi bayrağımız dünyanın 180 - dən artıq müstəqil dövlətinin bayraqları ilə bir sırada dalğalanmaqdadır. Azərbaycan Respublikası üçrəngli dövlət bayrağımız altında müstəqillik yolları ilə inamla irəliləyir.

Bu gün Azərbaycan adlı bir məmləkət bütün Avropanı qazandığı iqtisadi nailiyyətləri ilə fəth edirsə bu daim uca tutduğumuz bayrağımıza sədaqət rəmzidir. Amma müstəqilliyimizin, suverenliyimizin ifadəsi olan bayrağımızın dalğalanacağı daha bir ünvan bizi gözləyir. Bu ünvan Qarabağımızdır.

9 noyabr Dövlət bayrağı Günü münasibəti ilə respublikamızın hər yerində olduğu kimi, kitabxanalarda, lisey və gimnaziyalarda, ümumtəhsil məktəblərində, muzeylərdə və s. yerlərdə bir sıra silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlərin sırasına Bayrağımızla, Dirçəlişimizlə, Müstəqilliyimizlə bağlı ilk növbədə sərgi, kitab icmallarını, oxucu konfranslarını, inşa, şeir, rəsm müsabiqələrini, ədəbi-bədii kompozisiyaları və s. daxil etmək olar. İlk növbədə kitabxanalarda Bayraq Günü ilə bağlı sərginin tərtib olunması vacibdir. Sərgilərə müxtəlif başlıqlar vermək olar.

Məsələn: "Üçrəngli bayrağınla məsud yaşa Azərbaycan"," Bir kərə yüksələn bayraq, bir daha enməz", İlhamla, inamla dalğalanan bayrağımız","Azərbaycan bayrağı – fəxrimiz, vüqarımız","Bayraq müstəqilliyimizin simvoludur","Qüdrətli Azərbaycanın gücünün, əbədi müstəqilliyinin parlaq nümunəsi bayrağımız","Bayrağımız qürur mənbəyimizdir","Türkçülük, Müasirlik və İslamçılıq bayramı","Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi","Əbədi ucalan bayrağımız","İnkişaf yolumuzun rəmzi - bayrağımız","Milli dirçəlişdən qüdrətli dövlətçiliyə doğru", "Milli dirçəliş yolu milli birlikdən keçir" ,"Birliyimizin sübut günü" , "95 yaşın mübarək Azərbaycan Bayrağı" və s.

Bayraq Günü ilə bağlı kiçik yaşlı oxucular üçün nağıl otağında Azərbaycan, Vətən, Bayraq, Dirçəliş, Müstəqillik mövzusunda yazıçı və şairlərin qələmə aldığı əsərlərdən ucadan oxular, səhərçiklər hazırlamaqla, onlarda vətənə məhəbbət aşılamaq, bayrağımızın tarixini, mənasını başa salmaq olar. Həmçinin bayraqla əlaqədar Uşaq kitabxanalarında keçirilən tədbirlərdən biri də sual-cavab gecələri, viktorinalar, oxucular arasında bilik yarışmalarıdır. Bu tədbirlər oxucuların mövzu ilə əlaqədar biliklərini üzə çıxardır, bilmədiklərini isə öyrədir. Sual-cavab gecələri və viktorinalar canlı söhbət və müsahibə şəklində keçirilir. Bu da oxucuları Azərbaycanın tarixi, bayrağı ilə bağlı olan sualların aydınlaşdırılmasına xidmət edir.

Kitabxanalarda Bayraq günü ilə bağlı kitabxanaçı oxucularla söhbət apara bilər. Bildiyimiz kimi kitabxana bilik məbədgahıdır, kitab və ədəbiyyat isə tərbiyə işində böyük qüvvədir, Azərbaycan bayrağının nə kimi əhəmiyyət daşıdığının təbliği, izahı və öyrədilməsində kitabxanaların özlərinə məxsus spesifik imkanları vardır. Yəni başqa sözlə desək, kitabxanalar kitabın tərbiyəvi rolundan geniş və hərtərəfli, məqsədyönlü

istifadə etməklə, təhsil müəssisələri ilə birlikdə vətəni, onun atributlarını necə sevməyin öyrənilməsi işində yaxından iştirak etməlidir. Mənim fikrimcə kitabxanaçı elmdə öyrənməyin sirlərini öyrədən mütəxəssis sayılır. Kitabxanaçılıq işində adətən belə bir qayda özünü doğrultmuşdur ki, məktəblilərin, yeniyetmələrin, gənc oğlan və qızların düşünmək və öyrənmək qabiliyyətini fəallaşdırmaq üçün hansı iş üsulundan istifadə edilirsə, edilsin kitabxananın apardığı söhbət aparıcı rol oynayır.

Bu gün aparılan tərbiyə işinin əsas qayəsi müstəqil, demokratik, hüquqi dövlət qurmağa qadir olan və həmin cəmiyyətdə yaşayacaq gənclər yetişdirməkdir. Bu tərbiyə sisteminin əsas tərkib hissələrindən biri də vətənpərvərlik tərbiyəsidir. Kitabxanaçı "Azərbaycan bayrağı, dirçəliş, müstəqillik, vətəndaşlıq " anlayışı ilə yanaşı "vətənpərvərlik" anlayışı haqqında da geniş məlumat verməlidir. Çünki vətənpərvərlik elə bir hisdir ki, hər kəsin fəaliyyətinə məqsədyönlülük verir, məktəblilərin, gənclərin vahid məqsəddə birləşməsinə kömək edir. Bu gün xüsusilə məktəblilərdə, gənclərdə Vətənə məhəbbət və vətənpərvərlik hissini inkişaf etdirmək daha vacibdir.

Məhz bu məqsədlə kitabxanaçı uşaqlara, məktəblilərə, yeniyetmələrə öyrətməlidir ki, müstəqillik yolunda xalqımızın göstərdiyi vətənpərvərlik onların vətənə sevgisindən doğur. Bayrağımızın, Dirçəlişimizin, Müstəqilliyimizin, Konstitusiyamızın təbliği mövzusunda olan tədbirlərdə məktəblilərdə, gənclərdə Vətənə , doğulduğu torpağa, mənsub olduğu xalqa, dövlətə və onun rəmzlərinə dərin hörmət hissi aşılanmalıdır. Dövlətimizin himni, Dövlət gerbi, Milli bayrağının mənasının izah edilməsi, bunların müqəddəslik ideyasının oxuculara öyrədilməsi ön plana çəkilməlidir.

Kitabxanada mövzu ilə bağlı inşa, rəsm müsabiqəsi keçirmək olar və bu tədbirlər oxucular üçün maraqlı olar. Belə ki, kitabxanaçı müsabiqələrin keçirilməsi ilə bağlı yazılmış elanı kitabxananın divarından asır və oxucuların işlərinin toplanmasına, seçilməsinə 1 ay vaxt ayırır. Bu müddət ərzində uşaqlar tərəfindən təhvil verilən işlər içərisində ən yaxşı inşa, rəsm müəyyən olunur. Həmin oxucular müsabiqənin qalibi elan olunur və müxtəlif hədiyyələrlə kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılırlar. Müsabiqəni "Bir kərə yüksələn bayraq bir daha enməz" başlığı ilə adlandırmaq olar.

Şeir müsabiqəsinin keçirilməsi də təqdirə layiq olardı. Şeir müsabiqəsi uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, uşaqlar belə tədbirlərdə özlərinin şeir demək bacarıqlarını nümayiş etdirirlər. Bu tədbir yaxşı olardı ki, orta və yuxarı yaş qrup oxucular arasında keçirilsin.

*Oxucular əllərində Azərbaycan bayrağı Tünzalə Ağayevanın ifasında "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" mahnısının sədaları altında səhnəyə daxil olub, şeirlərini deməyə başlayırlar.*

Ay – ulduzlu bayrağım
Başım üstə hər zaman,
Alov kimi dalğalan.
Sənə kəc baxanların
Gözünə çöksün duman.

Ay ulduzlu bayrağım,
Günəş üzlü bayrağım.
Rəngin mavi, al, yaşıl,
Sənə necə yaraşır...

Seyr etdikcə hüsnünü
Sevincim aşıb – daşır.
Ay – ulduzlu bayrağım,
Günəş üzlü bayrağım.

Günəş göylərdə sönməz,
Uçan ox geri dönməz.
Bir kərə qalxan bayraq,
Heç vaxt bir daha enməz.
Ay – ulduzlu bayrağım,
Günəş üzlü bayrağım.

And içib birər – birər,
Balaca Heydərçilər.
Onlar qaldıracaqlar
Səni günəşə qədər,
Ay ulduzlu bayrağım,
Günəş üzlü bayrağım.

## Azərbaycanım

Göz açıb dünyaya gəldiyim gündən,
Ömrümü adına bağlamışam mən.
Sənsiz mən kiməm ki, vətən, ay vətən,
Ay arzum, diləyim, ruhum, vicdanım
Könlümün sevinci Azərbaycanım.

Sən varsan, ömrüm də güllü bahardır,
Mənə hər addımda taleyim yardır.
Sənsiz yerişim də müşkül olardı
Sənsən üfüqlərdə şəfəqim, danım,
Hər qumu bir inci Azərbaycanım!

Nə çoxdur dünyada ellər, obalar,
Hər elin öz adı, öz ünvanı var,
Övlada can deyən anası olar,

Qoysana adını hər yerdə anım,
Həmişə birinci Azərbaycanım!

Qara daşa dəyməz gövhərim sənsiz,
Bu geniş dünyada yox yerim sənsiz,
Bir gün dara düşsəm, de görüm, sənsiz
Hikmət döyüşündə neçə dayanım,
Sözümün qılıncı Azərbaycanım!

Seyran Cavadov

Vətənin qüruru, xalqın qüruru,
Müqəddəs varlıqdır, dövlət bayrağı!
Ucadan ucadır, uludan ulu,
Azadlıq rəmzidir, dövlət bayrağı!

Bir dəfə qalxıbdır.  Bir daha enməz.
Düşmən qarşısında heç vaxt əyilməz.
Döyüşdə qalibdir, rəngi dəyişməz.
Ölkəyə şöhrətdir, dövlət bayrağı!

Bayraqlar içində ucadır başı.
Tarixi varaqla, bilinmir yaşı.
Onunla fəxr edir, hər vətəndaşı.
Günəştək parlaqdır, dövlət bayrağı!

Bayrağa baxıram, göyləri dəlir,
Başının üstündə, duman çəkilir.
Xəyala dalıram, ruhum dincəlir.
Qürur mənbəyidir, dövlət bayrağı!

Milli qürurumuz, gərəyimizsən,
Sən bizim şərəfli tariximizsən.
Zaman dəyişsə də dəyişməmisən,
Sonda qürurumsan dövlət bayrağı!

Müstəqil dövlətin rəmzidir bayraq!
Azad bir dövlətin əzmidir bayraq!
Azəri xalqının fəxridir bayraq!

Yaşa səni, yaşa üçrəngli bayraq !            Əli Köçkün

**Gerbim, himnim, bayrağım**

Sərvətimdi, varımdı
Yenilməz vüqarımdı.
Andım, iftixarımdı
Gerbim, himnim, bayrağım.

Sinəmdəki bu həvəs,
Şəhid qanına əvəz.
Aləmə salıbdı səs
Gerbim, himnim, bayrağım.

Ana Kürdü, Arazdı,
Vəsf eləsəm də azdı.
Təzə bahardı, yazdı
Gerbim, himnim, bayrağım.

Varlığımdır, səddimdir
Basılmaz sərhəddimdir.
Səsim, imzam, xəttimdir
Gerbim, himnim, bayrağım.

Kəpəzdi, Savalandı
Ürəyimdəki qandı.
Anam Azərbaycandı
Gerbim, himnim, bayrağım.

Bayrağımız

Ay – ulduzlu gur şəfəqli,
Göz oxşayan, bər – bəzəkli,
Göy, qırmızı, yaşıl rəngli,
Dalğalanan bayrağımız.

Sən millətin qürurusan,
Odun şöhrət, sünbülün şan.

Yenilməzdir Azərbaycan.
Ucal hər an bayrağımız.

Tanrı bizi darda qoymaz.
Gözəlliyə fələk qıymaz.
Səndən heç vaxt könül doymaz.
Məğrur dayan, bayrağımız.

Öz yerin var yer üzündə,
Bir bəzəksən el gözündə.
Şuşada, Cıdır düzündə.
Qalx, dalğalan, bayrağımız.

Azərbaycan

Od tutub yandı sinəmdə həqiqət çırağı,
Sənə sevgim dilə gəlməz, sən eşqim ocağı,
Can fəda olsun sənə, xoşdur Vətən qucağı.
Mən ki candan aşiqəm, ey məni eşqə salan,
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

Yandır haqqın məşəlini, aləm nura dönsün,
Çıxsın yağı düşmən önünə, ərlər öyünsün,
Üçrəngli bayrağı qaldır, dünyada görünsün.
Çal cəngini, olsun yağının bağrı qızıl qan,
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

Sən Təbrizsən, Bakısan, Ərdəbilsən, Gəncəsən,
Dəmir qapı Dərbəndsən, Qarabağ, Əlincəsən,
Sən Azəri türkünün namusu, qeyrətisən.
Türk aslanı doğulsun, amalı, eşqi Turan.
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

Vətənim, səni can yanğısı ilə sevirəm,
Önündə diz çökərəm, torpağını öpərəm,
Baş qoyub daşın üstə sənə səcdə edərəm.
Bu diyarı bəxş edib, aləmləri yaradan.

Azərbaycan, türkün Vətəni, can sənə qurban.

Qəlbimdə yuva qurmuş Vətən adlı sevgisən.
Can verən şəhidlərin azadlıq nəğməsisən.
Beş yerə parçalanmış bir yurdun haqq səsisən.
Dinindir gözəl islam, and yerindir o Quran,
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

Ələkbər Sadiq

**Azərbaycan Xalq Cumhuriyyətinin Milli Bayrağı**

Türkistan elləri öpüb alnını,
Söyləyir dərdini sənə, bayrağım.
Üç rəngin əksini “Quzğun Dəniz” dən,
Ərmağan yolla sən yara, bayrağım.

Gedirkən Turana çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başına.
İzin ver, gözümdən coşan yaşıma,
Dinlətsin dərdini aha, bayrağım.

Qanı Xan soyundan aldığın rəngi,
Qucamış ilhamla müsəlman bəyi.
İlhamın övladı, dinin dirəyi,
Gətirdin könlümə səfa, bayrağım.

Köksümdə tufanlar, gəldim iləri,
Öpüm kölgən düşən mübarək yeri.
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

Əhməd Cavad.

Bayraq

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası – bayraq.
Zəfərdən doğulmuş Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri – qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq – öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar – yamaclar
Onun huzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

Bəxtiyar Vahabzadə

Bayraq – Vətən deməkdir.
Vətən onun varlığı.
Vətən yoxdursa əgər,
Yoxdur onun bayrağı.

Sevirəm bayrağımı.
Öz ana dilim kimi.
Qaldırıram havaya.
Onu sağ əlim kimi.

Od – alovdan keçibdir,
Bu bayraq zaman - zaman.

Bu bayraq and yerimiz.
İnam yerimiz - Quran.

Bu bayrağın arxası,
Qranitdir, qayadır.
Yolumuz Kəlbəcərə,
Ağdama, Şuşayadır!

Vəli Əhməd

Milli bayraq

Dalğalan, ey milli bayraq!
Öz zirvəndən enmə yerə.
Başlanıbdır təzə növraq,
Keçsin gələn nəsillərə.
Qüvvətini səndən alır
Min nemətli od diyarım.
Təzə - təzə cığır salır
Ümidlərim, arzularım.
Mərd çıxmısan imtahandan,
Vüqarına min bir alqış.
Atalardan – babalardan
Vüqar bizə miras qalmış.
Rəngindəki o qırmızı
Şəhidlərin al qanıdır.
Od nəfəsi – yurdumuzu
Yer üzünə o tanıdır.

Şövkət Horovlu

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Azərbaycan bayrağı müasir gəncliyin gözü ilə" konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, müəllimlərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Azərbaycan bayrağı ilə bağlı kitabxana rəhbərliyi, siyasətçilər, müəllimələr, jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

Oxucu konfranslarını müxtəlif adlar altında keçirmək olar. Məsələn: "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan

bayrağımız”
”Birliyimizin sübut günü”
“Bir kərə yüksələn bayraq bir daha enməz”
“Dirçəlişdən başlayıb müstəqilliyə gedən yol”
“Azərbaycan Müstəqillik yolundan dönməyəcək!”
“95 yaşın mübarək Azərbaycan bayrağı”
“Azərbaycan dövlətinin müstəqilliyi əbədidir” və s.

**1.** Giriş hissə (Milli Bayrağımız haqqında məruzə)
**2.** 9 noyabr Milli Bayraq Günü haqqında kitabxana rəhbərliyinin, siyasətçilərin, jurnalist, yazıçı və şairlərin çıxışları.
**3.**Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların “Milli Bayraq Günü” ilə bağlı məruzələri.
**4.** Konfransın yekunu.

Siyasətçilərimizin, gənc oxucularımızın, məktəblilərin Milli Bayraq Günü haqqında ideya və maraqlarını öyrənmək məqsədilə dəyirmi masanın keçirilməsi də, məqsədə uyğundur. Müəllimələr, siyasətçilər, yazarlar, şairlər müstəqilliyimizin qorunmasında, gənclərin həyatının yaxşılaşdırılmasında mühüm rolu olan gənclər təşkilatlarının nümayəndələri tədbirə dəvət olunur.

Tədbir zamanı siyasətçilər, yazarlar, müəllimələr, gənclər və təşkilat nümayəndələri məruzə edirlər. Gənclərimizin Azərbaycan bayrağı haqqında fikirləri, ideyaları, gələcək planları barədə çıxışları dinlənilir. Hər bir tədbir iştirakçıları dinlənildikdən sonra, onlara oxucular tərəfindən suallar verilir və iştirakçılar verilən suallara açıqlıq gətirirlər.

Kitabxanalarda keçirilən silsilə tədbirlərdən biri də kitab icmalıdır. Azərbaycan bayrağının tarixi, əhəmiyyəti haqqında yazılmış kitabların icmalının keçirilməsində məqsədimiz oxucular arasında bayrağımızla, dirçəlişimizlə, müstəqilliyimizlə bağlı nəşr olunan bir çox kitablarla oxucuları tanış etməkdir.

Kitabxanada keçiriləcək tədbirlərin ən maraqlısı ədəbi-bədii gecədir. Ədəbi bədii gecə əsasən üç hissədən ibarət olur. Birinci hissədə tədbirdə iştirak edən qonaqların çıxış və məruzələri dinlənilir. İkinci hissədə isə Bayrağımızla, Müstəqilliyimizlə bağlı bir çox vidolentlər, müxtəlif slaydlar nümayiş olunur. Üçüncü hissədə ədəbi - bədii kompozisiya iştirakçılara təqdim olunur. Həmçinin tədbirin bədii hissəsində müxtəlif şeir və musiqilər də səslənir.

Tədbirə kitabxananın müdiriyyəti tərəfindən milli Qəhrəmanlar, görkəmli şəxslər, müəllimlər ,şairlər, yazıçılar və bir sıra qonaqlar dəvət olunur. Foyenin və zalın divarlarına Bayraq haqqında deyilmiş sitatlar yazılmış plakatlar asılır.

Qeyd etdiyimiz kimi, tədbir bir çox başlıqlar altında keçirilə bilər. İndi isə “Bir kərə yüksələn bayraq bir daha enməz” adlı ədəbi bədii gecənin ssenarini sizə təqdim edirik. Tədbir Azərbaycanın Dövlət himni ilə başlayır. Səhnəyə

üçrəngli Azərbaycan bayrağı gətirilir. Səhnə bayram əhval-ruhiyyəsi ilə bəzədilir. Bir çox sitatlar səhnənin divarından asılır. Məsələn:” 9 noyabr Milli Bayraq günüdür”, “Dirçəlişdən başlayıb müstəqilliyə gedən yol”,” 9 noyabr İnqilab, oyanış bayramıdır”,”Milli dirçəlişdən qüdrətli dövlətçiliyə doğru”, ”9 noyabr milli şüurun yüksəliş günü”,”Birliyimizin sübut günü” ,“Müstəqillliyimiz əbədidir”, “İnsanlara hüriyyət, millətlərə istiqlal”, “Haqq verilməz, alınar!”,”Bir daha yüksələn bayraq, bir daha enməz” , “Bayrağımız qürur mənbəyimizdir”, “Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir”, “Bir kərə yüksələn bayraq, bir daha enməz”, ”İlhamla, inamla dalğalanan bayrağımız”, ”Türkçülük, Müasirlik və İslamçılıq bayramı”, ”Azərbaycan bayrağı – fəxrimiz, vüqarımız”, ”Bayraq müstəqilliyimizin simvoludur”, “Qüdrətli Azərbaycanın gücünün, əbədi müstəqilliyinin parlaq nümunəsi olan bayrağımız”, ”Ölkəmizin unudulmaz tarixi hadisəsi”, “Üçrəngli bayrağınla məsud yaşa Azərbaycan!” və s.

Səhnədə Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın müstəqilliyi, inkişafı yolunda gördüyü işlərdən bəhs edən şəkillər, Bayraq haqqında yazılmış şeirlərdən parçalar asılır.

*Tədbirin başlanğıcında bayraq haqqında hazırlanmış slayd tədbir iştirakçılarına təqdim olunur. Sonra aparıcılar əllərində Azərbaycan bayrağı himnimizin sədaları altında səhnəyə daxil olurlar:*

**I Aparıcı:** Əziz və hörmətli qonaqlar! Hamınızı bu əziz bayramda xoş gördük. Aylı - ulduzlu üçrəngli bayrağıma baxıram - alnım açılır, qəlbim gülür, sinəm dağa dönür. Başımın üstündə bayrağım dalğalanırsa, mən vüqarlıyam, ucadan ucayam, xalqım azaddır, ölkəm müstəqildir, suveren dövlətim var. Bayraq mənim qələbə sevincimdir – Vətənimin zəfər günündə göylərə yüksəldilir, bayraq mənim qəm sirdaşımdır – məmləkətimin kədər, hüzn anlarında endirilir. Bayraq qürur duyduğum nişanədir – dövlətin varlığını sübut edir dünyada, millətimin imzasını təsdiqləyir imzalar içində. Harada ki, üçrəngli bayraq dalğalanır – ora mənim Vətənimdir, Azərbaycan məkanıdır, orada yurdumun sədası, sözü - söhbəti var. Sevilən şairimiz Bəxtiyar Vahabzadə “Bayraq” şeirində yazır:

“Bayraq mənliyimdir,
Bayraq kimliyim
Bayraq – öz yurduma öz hakimliyim.

**II Aparıcı**: Bəli, bayraq dövlətin bütövlük, müstəqillik, yenilməzlik, ucalıq, bir sözlə müqəddəslik rəmzidir. Millətin, xalqın qeyrət simvoludur. Ən böyük səltənət sahibləri, cahangirlər, hökmdarlar, dünya şöhrətli

sərkərdələr, sərdarlar belə bayraq önündə diz çökməyi, bayrağın ətəyindən öpməyi özlərinə şərəf - şan bilmişlər. İstiqlal və azadlıq mücahidləri bayraq yolunda qan axıtmağı həyatlarının mənası sanmışlar. Ölümün üstünə bayraq naminə yerimişlər. Şəhidlik zirvəsinə "ya istiqlal, ya ölüm" deyə bayraqla bağlı amal, arzu - istək üstə yüksəlmişlər. Bayraq gününün təsis edilməsi və ümumxalq bayramı günü kimi qeyd olunması dövlətçilik, milli həmrəylik və hərbi vətənpərvərlik, yaddaşlarda özünə yuva quracaq vətən sevgisi kimi hissilərin şüurlara yeridilməsi baxımından əvəz olunmaz və təsiri tərbiyə vasitəsidir.

*Cəngi sədaları altında oxucu səhnəyə çıxıb Fazilə Qaraxanqızının "Dalğalansın bayrağımız şeirini söyləyir.*

Dalğalansın bayrağımız
Bu gün babam Xətainin
Nəvələri səngərdədir.
Azərbaycan torpaqları
Etibarlı əllərdədir.

Bəndik cəngi sədasına ,
Bir anda səfərbər olaq.
Əsir düşmüş torpaqları
Düşmənlərdən geri alaq.

Nicat tapsın, azad olsun
Əsirlikdən torpağımız.
Dalğalansın qoy üçrəngli
Ay - ulduzlu bayrağımız.

**I Aparıcı:** Bildiyiniz kimi, xalqımız keşməkeşlı mübarizələr dolu tarixi bir yol keçmişdir. Bunların hamısının bir məqsədi, bir məramı olmuşdur: Azadlıq, müstəqillik. Xalqın ən böyük uğuru onun müstəqilliyidir. Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat - qat çətindir. Azərbaycanın müstəqillik yolunda atdığı ilk addım 1991 - ci il avqustun 30 - da Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədən kənar sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyini bərpa etmək haqqında " bəyannaməni qəbul etməsi olmuşdur. Bunun ardınca Azərbaycan Respublikası Ali sovetinin həmin il oktyabrın 18 - də keçirilmiş sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında"Konstitusiya aktı yekdilliklə qəbul edilmişdir.

Bununla da Azərbaycan Respublikası 1918 - 1920 - ci illərdə cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cumhuriyyətinin varisi elan edilmiş, xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşmuşdur.

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər ötər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı – Azərbaycan bayrağı!

**II Aparıcı:** Zəngin siyasi təcrübəyə və böyük dövlətçilik qabiliyyətinə malik Heydər Əliyevin belə ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı Azərbaycan dövlət müstəqilliyinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkə problemlərinin həlli istiqamətində konkret addımlar atılmağa başlandı.1994 - cü il mayın 12 - də cəbhədə atəşkəsin əldə edilməsi dövlətçiliyin möhkəmləndirilməsi , nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində inkişafın təmin edilməsi baxımından zəruri addım oldu. Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən qurtuldu. Xarici siyasətdə də mühüm nailiyyətlər əldə olundu. 1994 - cü il sentyabrın 20 - də Azərbaycanda yaranan sabitliyin və beynəlxalq aləmdə ölkəmizə artan inam və marağın nəticəsi kimi dünyanın aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan neft sazişi imzalandı.

**II Aparıcı**: Bayraq meydanından keçərkən ilhamla, inamla, əzəmətlə dalğalanan bayrağımızı lap yaxından seyr edirik. Ona tamaşa etdikcə "Bayraq" şeiri misralara çevrilərək ürəyimizdən dilimizə süzülür:

*Gəlin oxucumuzun ifasında Seyran Cavadovun "Bayraq" şeirini dinləyək*

Bayraq bir millətin özünüdərki,
Qeyrəti, məsləki, əqidəsidir.
İliyindən keçib, canından gələn,
Dilində göyərən haqqın səsidir.

Xətai idrakı, Babək qılıncı,
Koroğlu sazının öz simidir o.
Babam Füzulinin qərib məzarı,

Hələbdə soyulan Nəsimidir o.

Dik saxla başını, dik tut, bayrağım!
Qəddin əyilməsin heç vaxt bir daha.
Hələ qarşıdadır sənin xoş çağın,
Gedək o günləri doğan sabaha!

Ulu əcdadımın Qobustandakı
Qayada cizgisi, Qaval daşıdır.
Yüz illər, min illər yol keçib gələn,
Nəsillər yaşadan qan yaddaşıdır.

Kəpəzdi, Qoşqardı, Arazdı, Kürdü,
Mayası atəşdən, sudan yoğrulub.
Üç rəngi köçürüb öz varlığına,
Bir aylı gecədə sanki doğulub.

Dönüb bir millətin səcdəgahına.
İgidlər önündə onun and içər.
"Yaşa, ana yurdum, sən yaşa!" – deyə
Girib döyüşlərə canından keçər.

Namusdu, qeyrətdi, şöhrətdi, şandı,
Bayraq ucalanda millət ucalar.
Bayrağı ucaldan oğullar varsa,
O millət həmişə zəfərlər çalar.

**I Aparıcı:** Milli dövlət quruculuğunun bərqərar edilməsi xalqımızın suverenliyini təmin etdi, tarixi yaddaşın formalaşmasında müstəsna əhəmiyyət kəsb etdi.

Azərbaycanın BMT - yə üzv qəbul olunması ilə onun beynəlxalq aləmdə tanınmasına başlandı. 1995 - ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi ilə ölkədə dövlət quruculuğu üçün zəruri hüquqi baza formalaşdı. Ölkəmizin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olaraq quruldu. Bu

il ərzində Azərbaycanda bütün istiqamətlərdə dövlət quruculuğu prosesi uğurla həyata keçirildi, dövlətçilik ənənələri zənginləşdirildi.

Vətənin qüruru, xalqın qüruru,
Müqəddəs varlıqdır, dövlət bayrağı!
Ucadan ucadır, uludan ulu,
Azadlıq rəmzidir, dövlət bayrağı!

**II Aparıcı**: Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanılır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli – mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir.

1920 - ci ildə itirdiyimiz müstəqillik ümummilli lider Heydər Əliyevin böyük səyi nəticəsində yenidən bərpa olundu və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasətin sayəsində böyük sürətlə öz inkişaf dövrünü yaşayır.

Bir dəfə qalxıbdır. Bir daha enməz.
Düşmən qarşısında heç vaxt əyilməz.
Döyüşdə qalibdir, rəngi dəyişməz.
Ölkəyə şöhrətdir, dövlət bayrağı!

**I Aparıcı**: Hər bir ölkənin tarixi və dövlətçilik ənənələri onun rəmzlərində və atributlarında öz əksini tapır. Azərbaycan respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Yüz ilə yaxın bir müddətdir ki, üçrəngli dövlət bayrağımız insanlarımız üçün müqəddəs ideal rəmzinə çevrilmişdir. İlk mövcudluğunun 18 ayı dövründə ən istəkli bir varlıq kimi sevilmiş, əzizlənmiş, adına və hüsnünə şeirlər yazılmış, mahnılar bəstələnmişdir.

Görkəmli Azərbaycan yazıçısı və dramaturqu Cəfər Cabbarlı, zəmanəsinin böyük şairləri Məhəmməd Hadi, Əhməd Cavad və başqaları şeirlərində üçrəngli bayrağı böyük sevgiylə öymüş, onu ulduzlardan da yüksəklərdə dayanan nazlı hilala bənzətmişlər. C.

Cabbarlının 29 iyul 1919 - cu ildə “Azərbaycan” qəzetində dərc etdirdiyi “Azərbaycan Bayrağına” şerində deyilir:

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli: üç boyalı, üç mənalı bayrağı!
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu? Aman Allah! Od yurdunun yaprağı.
Göy yapraklar, alçiçəklər, yaşıl otlar tapısmı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır,
Fəqət bizim bayrağımız yucaları pək seviyor,
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanır...
Bu ay, yıldız, boyaların qurultayı nə deməkʔ
Bizcə şöylə söyləmək:
Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Yürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!
Səkkiz uclu şu yıldız da səkkiz hərfli “Od yurdu”
Səhərlərə uçmuşdur...
Şu hilal da türk bilgisi düzgün sevgi nişanı...

**II Aparıcı**: Bəli, bayraq, gerb, himn kimi rəmzlər milli dövlətçiliyin varlığını, xalqın amallarını obrazlı və bədii dildə ifadə edən mühüm amillərdəndir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc mənbəyi sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin , təfəkkür və düşüncə tərzinin , mənəvi dünyasının göründüyü ən şəffav və dəqiq meyardır. Belə bayraqlardan biri Xəzər dənizinin sahilində, Bakı buxtasının ərazisində qürurla dalğalanır, bütün dünyaya müstəqil dövlətin varlığını nümayiş etdirir.

Bayraqlar içində ucadır başı.
Tarixi varaqla, bilinmir yaşı.
Onunla fəxr edir, hər vətəndaşı.
Günəştək parlaqdır, dövlət bayrağı!

**I Aparıcı**: 1991 - ci il 18 oktyabr günü. AR AS - nin sessiyası "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı" qəbul edir. ADR – dən qalma ən dəyərli miras kimi üçrəngli ay - ulduzlu bayraq təntənəli şəkildə rəyasət heyətinin səhnəsinə gətirilir. Riqqətdən köksümüz qabarır, sinəmiz qürur hissi ilə dolur.

Bu üçrəngli, ay- ulduzlu bayraq atributunda müqəddəs ideallarımızın, milli ideologiyamızın qayəsi öz əksini tapmışdır.

Rənglərdə "türkçülük" (mavi) türk dünyası ilə vəhdətimizə,"islamçılıq" (yaşıl) islam dünyası ilə din birliyimizə, "müasirlik" (qırmızı) dünya xalqları ilə dostluğumuza, bərabərliyimizə, müasirliyimizə, dünyəviliyimizə, beynəlmiləlçiliyimizə bir işarətdir. Tanrı nişanı olan səkkiz guşəli ulduz şumer türklüyündən bizə qalan anlamdadır. Türkün sevimli ağ çadırı həmişə səkkizguşəli olmuşdur. Hətta deyilənlərə görə Peyğəmbər Əfəndimizin özünün də ən sevimli çadırı, səfərlərində qurdurduğu ağ rəngli, səkkizguşəli türk çadırı olubdur. Çevrəsindəki ay isə İslam dininin dünyəviliyinə, müqəddəsliyinə, işarədir. İndi müharibə şəraitində yaşadığımız bir zamanda bayraq gününün təsis olunmasının və bayram günü kimi qeyd edilməsinin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində, Xankəndinin mərkəzi meydanında üçrəngli bayrağın qaldırılması uğrunda "Vətən sağ olsun!" deməyi bacaran oğulların tərbiyə edilməsində müstəsna əhəmiyyət daşıması danılmazdır.

Bayrağa baxıram, göyləri dəlir,
Başının üstündə, duman çəkilir.
Xəyala dalıram, ruhum dincəlir.
Qürur mənbəyidir, dövlət bayrağı!

**II Aparıcı:** Bəli, üçrəngli, ay - ulduzlu bayrağımız Azərbaycan Milli Hökumətinin 9 noyabr 1918 - ci il tarixli fərmanı ilə təsis edildi. 1918 - ci il dekabrın 7- də ilk parlamentin açılış iclasında bu əzəmətli bayrağa baxarkən Xalq Cumhuriyyətinin qurucularından olan M. Ə. Rəsulzadə zaman- zaman nəsillərin Azadlıq ruhunu oxşayan məşhur kəlamını da məhz həmin gün dilə gətiribdi: "Bir kərə yüksələn bayraq bir daha enməz!"

Zaman - zaman milli suverenliyimizin simvoluna , müstəqilliyimizin carçısına , azərbaycançılığımızın müqəddəs dövlətçilik rəmzinə çevrilən üçrəngli bayrağa yeni həyat , dəyər verən ulu öndərimiz , ümummilli liderimiz Heydər Əliyev oldu. Onun təşəbbüsü ilə 1990 - cı il noyabrın 17- də azərbaycançılıq məfkurəsinə, eləcə də milli - mənəvi dəyərlərimizə, ümumbəşəri ideallara sadiqliyimizin inikası olaraq üçrəngli bayraq Naxçıvan MR - nin dövlət bayrağı elan edildi və MR - in MM - in binası üstə qaldırıldı.

Günəş göylərdə sönməz,
Uçan ox geri dönməz.
Bir kərə qalxan bayraq,
Heç vaxt bir daha enməz.
Ay – ulduzlu bayrağım,
Günəş üzlü bayrağım.

**I Aparıcı:** Azərbaycan bayrağı zamanla bütövlükdə Azərbaycan dövlətinin əsas dövlətçilik atributlarından birinə çevrildi.

Ulu öndərin siyasi kursunu ləyaqətlə davam etdirən, sürətli inkişaf tempinin sükançısı, möhtərəm Prezidentimiz İlham Əliyevin praqmatizmi dövlət rəmzləri sırasında xüsusi yeri olan üçrəngli bayrağa münasibətdə də özünü parlaq büruzə verdi. İlk növbədə bu sahədə qanunvericilik bazası yaradıldı.

2004 - cü il iyunun 8 - də "AR Dövlət bayrağının istifadəsi qaydaları haqqında " Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Dövlət bayrağına baxış rakursunda qanunvericilik aktları təkmilləşdirildi. Möhtərəm prezident 2007 - ci il noyabrın 17 - də isə "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" sərəncam imzaladı. Bütün bunlarla kifayətlənməyən ölkə Prezidenti İlham Əliyevin 17 noyabr 2009 - cu il tarixli sərəncamı ilə noyabrın 9 - nun Dövlət Bayrağı Günü kimi elan etməsi hər bir ölkə vətəndaşının qürur hissini artıran, dövlətçiliyimizə məhəbbət və ehtiramını yüksəldən yeni bir amilə çevrildi.

Müstəqil dövlətin rəmzidir bayraq!
Azad bir dövlətin əzmidir bayraq!
Azəri xalqının fəxridir bayraq!
Yaşa səni, yaşa üçrəngli bayraq

**II Aparıcı:** İlham Əliyevin təşəbbüsü ilə Dövlət bayrağı Muzeyi yaradıldı. İndi sanki mavi Xəzərin qoynundan günəş çıxır. Çəkisi 350 kq, ölçüləri 70 mx 35m olan üçrəngli bayraq dənizdən doğan Günəş sayaq ətək aça - aça, şəfəq saça - saça aramla səmaya - qülləsi mavilikdə itən, ağ - gümüşü rəngli konusvari sütunun zirvəsinə qalxır.
Baş qaldırıb üfüq üstə qərar tutub bərq vuran, açıq səmada göy, al qırmızı və yaşıl rəngə boyanmış dəniz dalğaları tək yellənən , öz nəhəgliyi ilə maviliyə pərdə tutan əzəmətli və möhtəşəm bayrağımızın seyrinə dalırıq.

Möhtərəm Prezidentimiz İlham Əliyevin bayrağa xitabən dediyi sözləri “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir” sözləri hamını riqqətə gətirir.

**Azadlığın mübarək!**

Ulu tanrım, ey mənim haqq olanım.
Əsarətin zəncirini qırıb atdım.
Sən vermisən, azadlıqdır mənim haqqım.
Dodaqlarım titrəyərək,
Azərbaycan, Azərbaycan söylədi.
Vətən oğlu, Vətən eşqi nə gözəldir.
Torpağına and içərək,
Ləyaqətli bir övladtək

I Aparıcı: Bayraq, gerb və himn hər bir dövlətin, millətin rəsmi atributudur. Bu atributlar hər bir millət üçün o qədər müqəddəsdir ki, qərar tutduğu yüksəklikdən enməməsi üçün ona canlar fəda olunur. Uğrunda canlar fəda olmuş bayraqlardan biri də üçrəngli, ay - ulduzlu hilalımız - Azərbaycan bayrağıdır. Heç gördünüzmü balaca - toppuş əllərində üçrəngli bayrağımızı yelləyə - yelləyə ata - anasının əlindən tutub bağçaya, məktəbə gedən körpələrimizi. XX əsrin əvvəllərində millətin istiqlalı üçün savaşanların ən böyük arzusu bu mənzərəni görmək idi. Bayrağımız uzun illər tarixin yaşadığı ağır və məşəqqətli illərin qaranlıq pərdəsi arxasında gün işığına , dalğalanmağa həsrət qaldı. Vaxtıilə adını çəkən, rənglərin, ay - ulduzlu hilalın mənasını dilə

gətirən uzaq Sibirdə çürüməli, yerdə qalanları məhv edilməli idi. Bayrağımızı işıqdan əbədi məhrum edənlər bilmirdilər ki, yeri - göyü nurlandıran ay və ulduzlar qaranlığa gömülə bilməzlər...

Milli qürurumuz, gərəyimizsən,
Sən bizim şərəfli tariximizsən.
Zaman dəyişsə də dəyişməmisən,
Sonda qürurumsan dövlət bayrağı!

II Aparıcı: Bayrağımızın üçrəngli olması ideyasının müəllifi Əli bəy Hüseynzadədir. Ay - ulduzlu və üçrəngli bayraq onun düşüncələrini ehtiva edirdi. Mavi rəng türklüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng isə dinimizə bağlılığı ifadə edir. Türk milli şüurunun təkamülü və onun orta əsrlərin ümmət fəlsəfəsindən milliyyət müstəvisinə çevrilməsi də Əli bəy Hüseynzadənin üç düsturu ilə bağlıdır. O düstur bu gün milli ideologiyamızın əsas prinsipləri kimi bayrağımızın rəngində öz əksini tapır. Əli bəy Hüseynzadənin Azərbaycanın siyasi və milli – ideoloji xəttini ifadə edən mülahizələri sonrakı mərhələdə milli özünütəsdiqin və istiqlal savaşının işıqlı yollarını nişan verdi. Bu gün o yolla Türkiyə və Azərbaycan qardaş kimi əl - ələ , çiyin - çiyinə bərabər gedirlər.

Bayrağın üzərindəki ağrəngli ay nişanı türkçülüyü, səkkizguşəli ulduz isə "Azərbaycan" sözünün əski əlifbada səkkiz hərflə yazılışının göstəricisidir. Mülahizələrə görə, 1918 - ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin dövlət prinsipləri müəyyənləşərkən səkkiz atributa əsaslanıb. Bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokraktiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Səkkizguşəli ulduzun hər bucağı bu prinsiplərin bir rəmzindəndir.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri – qədimdən
Bayraq işığında bitən görmüşəm.

**I Aparıcı:** Doğma Azərbaycanımızı müstəqil , suveren görmək həmişə qeyrətli babalarımızın arzusu olub. Bu arzunu reallaşdırmaq, həqiqətə çevirmək üçün nə qədər qurbanlar vermişik. Səttərxan, Şeyx

Məhəmməd Xiyabani, Məmməd Əmin Rəsulzadə, Seyid Cəfər Pişəvəri və başqaları Azərbaycanın müstəqilliyi uğrunda mübarizə meydanına atılıblar.

Bəli, bu gün Milli Bayrağımız Azərbaycan Respublikasının tanıtım vəsiqəsi, dövlətçilik rəmzidir. Milli bayraq - siyasi, ideoloji, mənəvi baxımdan bir millətin və bu milləti təşkil edən dövlətin mövcudluğunu təsdiqləyən rəmzidir. "Bayraq " sözü ümumtürk mənşəlidir və tarixi çox qədimdir. Tarixən azəri türkləri başıbəlalı xalq olub. Daim yadellilər tərəfindən hücuma məruz qalan, dəfələrlə sınağa çəkilən xalqımız çoxlu yad təsirlərlə üzləşib. Bunlara mətanətlə cavab verməyə cürətimiz çatıb. Müasirlik, türkçülük, etiqad azadlığı ideyalarını əks etdirən bayraq xalqın birlik arzularının nə qədər böyük olduğunun bariz nümunəsidir.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

**II Aparıcı:** Azərbaycanlı milli düşüncəsində də əsas dövlət rəmzlərindən olan bayrağa münasibət tarix boyu özünü qabarıq göstərmiş, xalqımızın milli mövcudluq nişanəsi sayılmışdır. Tariximizin ən dəyərli eksponatları sırasında yer tutan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə köməklik edir.

2009 - cu il noyabrın 17 - də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi bir sərəncama imza atdı. İlk dəfə olaraq milli bayrağa olan sevgi dövlət tərəfindən rəsmiləşdirilərək hər il bu ayın 9- nun Dövlət Bayrağı Günü kimi qeyd edilməsi və qeyri – iş günü elan edilməsi qüvvəyə mindi. Prezidentin "Bayraq gününün təsis olunması" ilə bağlı verdiyi fərman Milli Məclisin qərarı ilə Konstitusiyamızın Əmək Məcəlləsinnin 105 - ci maddəsinə müvafiq olaraq qeyri iş günü hesab edildi. Bayram Günü ilə bağlı verilən sərəncamdan öncə də dövlət başçısı bu vacib milli atributumuz barədə mötəbər sərəncam imzalamışdı.

Yandır haqqın məşəlini, aləm nura dönsün,
Çıxsın yağı düşmən önünə, ərlər öyünsün,
Üçrəngli bayrağı qaldır, dünyada görünsün.
Çal cəngini, olsun yağının bağrı qızıl qan,
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

**I Aparıcı:** Varlığımızı təsdiqləyən bayrağımızla bağlı bu tarixin seçilməsi təsadüfü deyildi. … 1990 - cı ildə doğma vətəni Naxçıvana qayıdaraq Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə fədakarlığını vətəndaş yanğısı və məsuliyyəti ilə davam etdirən ümummilli lider Heydər Əliyevin gördüyü işlərin hər biri bir salnamə kimi tariximizə yazılsa da onların arasında gələcək taleyimizi müəyyənləşdirən daha mühüm, əhəmiyyəti ilə seçilənləri də az deyildi.

1991 - ci il fevralın 5 - də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Bu Konstitusiya qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq olunmuşdur.

Od tutub yandı sinəmdə həqiqət çırağı,
Sənə sevgim dilə gəlməz, sən eşqim ocağı,
Can fəda olsun sənə, xoşdur Vətən qucağı.
Mən ki candan aşiqəm, ey məni eşqə salan,
Azərbaycan, türkün Vətəni, can sənə qurban.

**I Aparıcı**: 2010 - cu il sentyabrın 1- də Prezident İlham Əliyevin iştirakı ilə Bakıda Dövlət Bayrağı Meydanının açılışı keçirildi və dünyanın ən böyük bayrağı paytaxtımızın səmasında dalğalandı. Bayraq dirəyinin hündürlüyü 162 metr, onun zirvəsində dalğalanan üçrəngli bayrağın uzunluğu 70, eni 35 metrdir.

Meydanda Dövlət Bayrağı Muzeyi yaradılıb. 2010 – ci il noyabrın 9 - da Prezident İlham Əliyevin iştirakı ilə açılan muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqlarlın bayraqları, gerblər, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növlərinin döyüş bayraqları nümayiş olunur.

Dinamik və sürətli inkişaf tempinə görə lider mövqeyini inamla davam etdirən müstəqil Azərbaycan özünün şərəfli dövlətçilik

tarixinin daha bir əlamətdar bayramını – Dövlət Bayrağı Gününü qeyd etməyə hazırlaşır. Bütün sahələrdə keçid dövrünü başa vuran, dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olmağı qarşıya məqsəd qoyan, beynəlxalq arenada özünəlayiq yer tutan , qüdrətli dövlət quruculuğu yolunda uğurlu addımlar atan respublikamızda belə bir bayramın təsis edilməsi və təntənəli qeyd olunması, başlıca arzusu Azərbaycan dövlətinin güclənməsi olan xalqımızın vətənpərvərlik ruhunun bariz ifadəsidir. Müstəqillik ən böyük sərvətimiz, ən böyük xoşbəxtliyimizdir. Onun əsas rəmzlərindən biri olan üçrəngli bayrağımız müstəqilliyimizin qarantıdır.

Bu bayraq millətə tutdu üzünü,
Bayraqdar ecazkar xilaskar oldu.
Elə həkk elədi ”Allah” sözünü,
Bağrının başında məşələ döndü.

**II Aparıcı:** Bu gün Azərbaycan boyu dalğalanan üçrəngli bayrağımızın tarixi elə milli dövlətçiliyimizin keçdiyi sınaqların tarixi kimi dəyərləndirilməlidir.

Milli bayraq dövlətçiliyimizin rəmzi kimi nəsillərin qəlbində özünə yer tutur. Bu bayrağı qaldıranlar üç rəngin ideyalarından ayrılmırlar. İnanırlar ki, bir kərə yüksələn bayraq bir daha enməyəcək, yenə də yüksəklərdə dalğalanacaq.

Xalqımız müstəqilliyimizin əbədi və dönməzliyi, Azərbaycanın çiçəklənməsi istiqamətində ümummilli liderimiz Heydər Əliyevin titanik fəaliyyətini, əvəzsiz xidmətlərini sonsuz minnətdarlıq və ehtiramla yada salır.

Ulu öndərin siyasi kursunu inamla və qətiyyətlə davam etdirən ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi 1993 - 2003 - cu illər Azərbaycan üçün həlledici olmuşdur: “Məhz o illərdə Azərbaycanda iqtisadi, siyasi sabitlik yaranmış, ölkə dünya birliyinə özünü təqdim edə bilmişdir. Biz beynəlxalq təşkilatlara üzv olduq. Azərbaycan bayrağı bütün beynəlxalq təşkilatlarda dalğalanmağa başlamışdır. Azərbaycan xarici tərəfdaşlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişdir. O proseslər bu gün də Azərbaycanın inkişafını təmin edir və onilliklər bundan sonra da Azərbaycanın uğurlu inkişafını müəyyən edəcəkdir”

*İndi isə gəlin oxucularımızın ifasında Azərbaycan Respublikasının müstəqilliyindən, bayrağından bəhs edən ədəbi bədii kompozisiyaya tamaşa edək.*

*İştirakçılar alqış sədaları altında əllərində Azərbaycan bayrağı səhnəyə daxil olurlar.*

Əcdadımız Koroğludur, Babəkdir bizim
Nizamilər, Füzulilər vətəniyəm mən,
Nəsimiyə öyrətdim ki, igidlik, dözüm
Soyulsa da qoy dönməsin əqidəsindən,

Odlar yurdu, Odlar yurdu Azərbaycanım,
Naxçıvanam, Lənkəanam,Qarabağam mən.
Yolun azmış azğınlara bir həyəcanam,
İldırımlar səcdə edən yanar dağam mən.

*Sonra oxuculardan biri aşağıdakı misraları deyir:*

Oxu, dodağım mənim!
Alış, ocağım mənim!
İstiqlal havasını, xoşbəxtlik nəğməsini
Ürəkdə yanan işıq, damarda qan oxusun!
Ölməz Əhməd Cavadın”Azərbaycan” şeirini
Ölməz Səməd Vurğunun “Azərbaycan” şeirini
Azərbaycan oxusun!!! Azərbaycan oxusun!!!

*R. Behbudovun ifasında "Azərbaycan" mahnısı səsləndirilir. Oxucular səhnənin iki tərəfindən tamaşaçılara doğru irəliləyirlər, əllərindəki qərənfilləri tək - tək qonaqlara təqdim edib, onları bayram münasibətilə təbrik edirlər.*

*Səhnəyə biri qız, biri oğlan olmaqla iki oxucu çıxır.*

I Oxucu 1918 – ci il 9 noyabr

II Oxucu: Çəkdiyin həqarətlərə son qoyuldu o gün Vətən

I Oxucu: Gözündə istiqlal günəşindən axıb gələn işıq dolaşdı o gün Vətən!

II Oxucu: Azərbaycan müstəqil və azad bir respublikadır” dedilər o gün Vətən!

I Oxucu: Bu xoş gün bütün azərilərin , əsarətdə olan türklərin milli bayramına çevrildi, Vətən!

II Oxucu: Evlərə sevinc gətirdi, bağlı qapıları açıb adamlara şadlıq, istiqlaliyyət sözünü pıçıldadı o gün Vətən!

I Oxucu: 28 mayın xoşbəxtlik rəmzi olan üçrəngli bayrağını müqəddəs əmanət kimi qorudu övladın, Vətən!

*Azərbaycanın Dövlət Himni səslənir (Bütün zal ayağa qalxır və himni oxuyur)*

*Səhnədəki aparıcıları digərləri əvəz edir.*

I Aparıcı: Sən gəlişinlə bağlı qapıları açıb qaranlıqlara işıq saldın, Azərbaycan bayrağı, istiqlal!

II Aparıcı: Ayağın dəyən hər qarış ana torpağımız gül – çiçəyə büründü, Azərbaycan bayrağı, istiqlal!

I Aparıcı: Nə böyük qüdrətin , sehrin var, Azərbaycan bayrağı, istiqlal!

II Aparıcı: Azərbaycan bayrağı . Yaşayan millətin qəlbində can, İstiqlal, səadət, həyat, zəfər, şərəf, şan!

I Aparıcı: Azad Azərbaycanda xalq xoşbəxt, əsarət və istibdaddan uzaq ömür - gün sürürdü. Həyat gözəl, yaşamaq mənalı idi.

*Azərbaycan xalq musiqisi səslənir. Oxuculardan ibarət rəqs qrupu rəqs edirlər. Səhnəyə həyacanlı halda iki oxucu daxil olur.*

I Aparıcı: İblis nədir?

II Aparıcı: İblis, bütün insanlara xain olan qüvvət!

I Aparıcı: Evlərə girib yanan ocaqları söndürən, çıxan tüstünü kəsən!

II Aparıcı: Xalqların qanı bahasına əldə etdiyi azadlığı ondan tutub alan!

I Aparıcı: İblis nədir?

II Aparıcı: Cümlə xəyanətlərə bais...

I Aparıcı: Ya hər kəsə xain olan insan nədir?

II Aparıcı: İblis!

I Aparıcı: İblis, içərisindəki kini, xəyanəti qılınca döndərib 1920 – ci il aprelin 28 – də XI Qızıl Ordu altında Bakıya matəm ab - havası gətirdi. Yüzlərlə Azərbaycan əsgəri qətlə yetirildi o gün!

II Aparıcı: Ana bacıların ahı, fəryadı ərşə qalxdı o gün!

I Aparıcı: Daş – torpaq oda döndü canımdakı sazaqdan!

II Aparıcı: Harda nakam Müşfiqi dəldi- deşdi güllələr.

I Aparıcı: Harda Əhməd Cavadı vaxtsız ölüm haqladı.

II Aparıcı: Azərbaycan xalqının sarsılmaz dayaqları

I Aparıcı: Bax o zaman laxladı!!!

II Aparıcı: O zaman ayrı düşdüm

Üç boyalı bayraqdan.

A dostlar, mən yoruldum

Bu gizli ağlamaqdan

I Aparıcı: Nə zaman ki, xəyanət yırtıcı qurda döndü,

Heykəlləşən Cavidi öz yolundan saxladı

Zəngəzurun, Göyçənin, Şuşanın dayaqları

Bax o zaman laxladı!!!

II Aparıcı: Ancaq Azərbaycanın mərd övladlarının səsi 1988 – ci ildə Azadlıq meydanında göyə yüksəldi.

I Aparıcı: Qırmızı imperiya isə məğlub olmaq istəmədi.

II Aparıcı: 37 - ci ildə sərt açılan güllələr doxsanın yanvarındab gəldi Bakıya dəydi

I Aparıcı: Yenə də yüzlərlə azəri övladı istiqlaliyyətin qurbanı, Müstəqil Azərbaycan uğrunda şəhid oldulalar.

*Səhnədə şəhidlər mahnısı səsləndirilir.*

II Aparıcı: "Azərbaycan Respublikası Ali Sovetinin 1991 – ci il 18 oktyabr tarixli sessiyasında Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildi."

I Aparıcı: Ancaq Azərbaycan torpağına göz dikən düşmənlər öz çirkin əməllərindən əl çəkmirlər. Azğın ermənilər həyasızcasına Azərbaycanın torpağını işğal edirlər.

II Aparıcı: Allah, sən özün yetiş hayıma, harayıma,

Mülkümə, sərvətimə, varıma güllə dəydi.

Haqqımı tələb edib, birliyə can atanda

Bütövüm paralandı, yarıma güllə dəydi.

I Aparıcı: Ürəyindən vuruldu igidlərin dəstəsi,

Bilinmədi öləni, yaralısı, xəstəsi.

Könüllərin yarıdı "Qarabağ" şikəstəsi,

Mənim şikəstə adlı yarıma güllə dəydi.

*"Qarabağ"şikəstəsi səsləndirilir. Aparıcılar səhnədə görünürlər.*

I Aparıcı: Qanımızı qaynadan “Misri”n də, Cəngi”n də var.

Ruhumuzu oynadan min bir nəhəngin də var.

Hay salan təbillərin, həyəcan zəngin də var.

Dastanını yazmağa sinəm varaq – varaqdır,

Vətən, əymə qəddini, dar gündür, dar ayaqdır!

II Aparıcı: Xeyr, Azərbaycan övladı heç vaxt öz qəddini əyməz.

Səhnəyə 5 nəfər oxucu daxil olur və aşağıdakı şeiri deyirlər:

I Oxucu: Baxma ki, yollarda duman var, toz var,

Qəlbimdə atəş var, dilimdə köz var.

Bu gün dodağımda tək bircə söz var:

Qələbə! Qələbə! Ancaq Qələbə!

II Oxucu: Yaşlı yanaqların quruyan nəmi,

Qəmli ürəklərin silinən qəmi.

Bütün könüllərin gücü, məlhəmi,

Qələbə! Qələbə! Ancaq Qələbə!

III Oxucu: Haqsızın gücü var, haqqın Allahı,

Allah yerdə qoymaz çəkilən ahı,

Bu gün millət üçün sözlərin şahı

Qələbə! Qələbə! Ancaq Qələbə!

IV Oxucu: Kimin dərdi birdi, kimin dərdi min,

Qəbri tapdanmasın gərək mərdimin.

Bircə dərmanı var mənim dərdimin:

Qələbə! Qələbə! Ancaq Qələbə

(*Qələbə!Qələbə! ancaq Qələbə sözlərini oxucular hamısı birlikdə söyləyirlər)*

I Aparıcı: Biz inanırıq ki,Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı müdrik prezidentimiz hörmətli İlham Əliyev cənablarının ağıllı, uzaqgörən siyasəti nəticəsində müstəqil Azərbaycanımız bu qələbəni tezliklə bayram edəcəkdir. Bəli, inanırıq ki, hər addımında siyasi iradə nümayiş etdirən, ümumxalq məhəbbəti qazanmış möhtərəm Prezidentimiz, Ali baş komandan cənab İlham Əliyevin rəhbərliyi altında üçrəngli müqəddəs və möhtəşəm Dövlət Bayrağımız çox keçməz ki, yaxın gələcəkdə Xankəndinin mərkəzi meydanında və Vətənimizin tacı sayılan, Üzeyir yurdu – Şuşanın başı üzərində də əzəmətlə dalğalanacaqdır. Erməni - daşnak faşistləri tərəfindən məqbərəsi yerlə yeksan edilmiş Molla Pənah Vaqifin, heykəlləri dağıdılmış Üzeyir bəyin , Natəvan xanımın, Bülbülün, qəbir daşları oğurlanmış neçə - neçə Vətən övladlarının cəlayi – Vətən olmuş ruhları nəhayət rahatlıq tapacaq.

*Tünzalə Ağayevanın ifasında Mən fəxr edirəm ki, Azərbaycanlıyam mahnısı səslənir.*

I Oxucu: Yurdun daşları da qalxsın ayağa,

Yüz dəfə dirilsin, ölsün bu canım,

Fərəhlə üzümü sürtüm torpağa,

Deyim, gözün aydın. Azərbaycanım!

*“Cəngi” musiqisinin sədaları altında “Bayraq” gününə həsr olunmuş təntənəli ədəbi bədii kompozisiya başa çatır.*

**I Aparıcı**: Böyük iftixarla öpüb altından keçdiyimiz dövlət bayrağımızın müqəddəsliyini və zərb - məsələ çevrilmiş bu sözləri heç vaxt unutmamalıyıq: “Bayraqları bayraq edən üstündəki qandır, Torpaq əgər uğrunda ölən varsa, Vətəndir” Dünyanın hər guşəsində qəlbi vətən eşqi ilə çırpınan bütün azərbaycanlıları, respublikamızın gələcəyə nikbin baxan vətəndaşlarını Dövlət bayrağı Günü münasibəti ilə təbrik edir, hamıya vahid ideya ətrafında birləşmək, qarşıda duran nəhəng işlərdə uğurlar arzulayırıq. Bütün sevimli oxucularımızı bu münasibətlə təbrik edirik və şəhid qanı ilə yoğrulmuş bu nurani Bayrağımızın hər zaman ucalmasını Rəbbimizdən diləyirik!

Yaşasın Milli Bayrağımız!

## Ədəbiyyat siyahısı:


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997 – 1998, I – VIII kitablar.
2. Əliyev Heydər. Müstəqillik yolu(Seçilmiş fikirlər). Bakı, 1997. Tərtib edənlər: prof. Ş.Əsgərov, prof. S. Xəlilov.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
4. Azərbaycan bayrağı. Vaqif Kəhrizli, Bakı, "Yazıçı" nəşriyyatı – 2011, 192 səh.
5. Azərbaycan Xalq Cümhuriyyəti (1918 1920).
6. Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai – siyasi və ədəbi – mədəni həyat. Bakı,"Gənclik", 1992. Tərtib edəni:prof. Vilayət Quliyev.
7. Anar. Azərbaycançılıq haqqında düşüncələr. – "525 – ci " qəzet,24 – 25. 02. 2000 – ci il.
8. Şəmsizadə Nizaməddin. Azərbaycan ideologiyası. Bakı,1996.
9. Vətənə nəğmə çələngi. "Poeziya günü" toplusunun xüsusi buraxılışı V46 Bakı,"QOLİAF" Nəşriyyat evi, 2011, 496 səh.
10. Can Azərbaycan. Bakı, Qanun, 2006. 252 səh.
11. Azərbaycan Respublikasının Dövlət rəmzləri, tarixi günləri və bayramları / red. M. Saatci. - Bakı : Çağ öyrətim , 2005. - 55 s. ;
12. Bayramoğlu, Alxan Bayram. (Məmmədov). Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat / A. B. Bayramoğlu. - Bakı : Elm, 2003. - 276 s.
13. Can Azərbaycan / tərt.ed.: F. Ləman, Z. İslam, U. Sönməz ; red. N. İsrafilqızı. - Bakı : Qanun, 2006. - 252 s.
14. Mərdanov, Misir Cumayıl oğlu. Azərbaycan Respublikasının Dövlət rəmzləri : soraq kitabı / M. C. Mərdanov, Ə. Q. Quliyev ; - Bakı : Çaşıoğlu, 2010. - 288 s.



Redaktor: Şəhla Qəmbərova – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

Tərtib edəni: Ruhiyyə Məmmədli – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri